*0990
www.stp.az
info@stp.az

# "SUMQAYIT TEXNOLOGİYALAR PARKI"

## MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

Dam örtüklərin və suötürücü novların müayinəsi, aşkar edilmiş qüsur və zədələnmələr haqqında aktların tərtib edilməsi, iş həcmlərinin təyin edilməsi və smeta sənədlərinin hazırlanmasına dair keçiriləcək tender üzrə

İxtisas uyğunluğunun müəyyənləşdirilməsi prosedurunda iştirak etməyə

**DƏVƏT**

I

**Tenderin** ilkin mərhələsində ixtisas göstəricilərinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi üçün ixtisas uyğunluğunun əvvəlcədən müəyyənləşdirilməsi proseduru tətbiq olunur.

- ixtisas uyğuluğunun müəyyənləşdirilməsi prosedurunda iştirak etmək üçün yazılı müraciət (nümunə əlavə olunur) tələb olunur;
- ixtisas uyğuluğunun müəyyənləşdirilməsi prosedurunda iştirak etmək üçün müraciət (imzalanmış və möhürlənmiş) Bakı vaxtı ilə saat 09:00-dan 18:00-a qədər elanda göstərilmiş əlaqələndirici şəxsin elektron poçt ünvanına təqdim olunmalıdır.

II

**İxtisas uyğuluğunun müəyyənləşdirilməsi prosedurunda iştirak etmək istəyən təchizatçılar aşağıda qeyd olunan sənədləri təqdim etməlidirlər:**

- təchizatçının hüquqi statusunu təsdiq edən sənədlər (Nizamnamənin, Dövlət reyestrindən çıxarışın və şəhadətnamənin surəti);
- rekvizitlər (bank hesabı, hüquqi (qeydiyyat ünvanı) və faktiki (yaşayış) ünvanı);
- təchizatçının son bir il ərzində (əgər daha az müddət ərzində fəaliyyət göstərirsə, bütün fəaliyyət göstərdiyi dövürdə) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış; (Bank hesabından çıxarış təqdim edildiyi halda çıxarışın əslinin hər bir səhifəsi bankın və ya təchizatçının möhürü ilə təsdiq edilməlidir)
- təchizatçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Son maliyyə dövrünə olan məlumatı əks etdirən sənəd);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında arayış;
  *(Arayış elektron formada əldə edildikdə təchizatçının imzası, möhürü ilə təsdiq edilməlidir).*
- tender predmeti üzrə nəzərdə tutulan işlərin yerinə yetirilməsini və xidmətlərin göstərilməsini həyata keçirməyə icazəsi barədə lisenziyaları;

| | |
|---|---|
| II | • son 5 (beş) il ərzində (əgər daha az müddət ərzində fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründə) təchizatçının yerinə yetirdiyi anoloji müqavilələr haqqında məlumat; (Nümunə 1-də göstərilən formaya uyğun, Direktor və ya Müqavilə bağlamaq səlahiyyəti olan şəxsin imzası və möhürü ilə təsdiq edilmiş)<br><br>• satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;<br><br>• satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması; (Direktor və ya Müqavilə bağlamaq səlahiyyəti olan şəxsin etibarnaməsinin surəti)<br><br>• Rəylər və tövsiyələr: müştərilərin ən azı üç rəyi və ya dam örtüklərininin müayinəsini keyfiyyətlə və vaxtında icrasını təsdiq edən tövsiyə məktubları. Tövsiyə məktubları imzalı olmalı və əlaqə saxlamaq üçün məlumatlar qeyd edilməlidir;<br><br>• Əməyin mühafizəsi və keyfiyyətinə dair sənədlər: təhlükəsizlik tələblərinə uyğunluğu təsdiq edən daxili əmrlər və ya qaydalar (məsələn, əməyin mühafizəsi üçün məsul şəxslərin təyin edilməsi, təlimatların keçirilməsi haqqında əmr, HSE siyasəti və s.) və işin keyfiyyətinə nəzarət sistemi;<br><br>və s. sənədlər toplusunda tələb olunan digər sənədlər<br><br>Yuxarıda göstərilən sənədlər **“30” may 2025 -ci il saat 16:00-a** qədər elanda göstərilmiş elektron ünvana təqdim edilməlidir. |
| III | **Əlaqələndirici şəxs:**<br><br>Nigar Zeynalova<br><br>Telefon nömrəsi:<br>(+99410) 228-49-05<br><br>e-mail: tender.procurement@stp.az (CC n.zeynalova@stp.az) |
| VI | **İşin qısa təsviri :**<br>*“Sumqayıt Texnologiyalar Parkı”-nın ərazisində yerləşən 22 müəssisələri üzrə görüləcək işlər:*<br>• *Hər bir obyektin dam örtüyünün vizual və detal-instrumental müayinəsi;*<br>• *Qüsur aktlarının tərtib edilməsi (fotoşəkillərlə, zədələrin və səbəblərin təsviri ilə);*<br>• *Hər bir obyekt üzrə təmir işlərinin həcminin hesablanması;*<br>• *Smeta sənədlərinin hazırlanması;*<br>• *Təmir işlərin icrasının plan-cədvəli.* |